

Alla BAYRAMOVA,
Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin direktoru, sənətşünaslıq namizədi, Əməkdar mədəniyyət işçisi

# Nİyazİnİn yaradıcılıq İrsİ

## Onu necə təblİğ edİrİk?!

«Yüz dəfə eşitməkdənsə, bir dəfə görmək yaxşıdır» atalar sözünü bəstəkarlıq yaradıcılığına şamil etmək olmaz. Bəstəkarın töhvəsi onun əsərləri ilə müəyyən olunur, bu əsərlərin əhəmiyyətini isə ancaq onun musiqisini dinlədikdə qiymətləndirmək olar. Musiqiçi – ifaçıları və dirijorları ancaq dinləmək deyil, həm də onları müşahidə etmək, onların ifalarını görmək maraqlıdır. Başlıcası isə əlbəttə onların yaratdıqları əsərlərin səsləndirilməsidir.

Niyazinin dirijor və bəstəkar kimi təkrarolunmazlığı və istedadı haqqında, onun əhəmiyyəti haqqında çox danışmaq olar. Lakin onun dirijorluq etdiyi əsərlərin səsyazıları səsləndirilməsə və onun müəllifi olduğu əsərlər ifa edilməsə, bu cür təbliğat inandırıcı olmaz.

Niyazinin əsərləri və onun dirijorluq etdiyi musiqi bəzən vaxtaşırı olaraq müvafiq video və audio yazıları olan televiziya və radioda səsləndirilir. Niyazi yaradıcılığını geniş yaymaq üçün bu yazıların və onun əsərlərinin notlarının geniş tamaşaçı və dinləyici kütləsi üçün əlçatan olması vacibdir. Gəlin baxaq, bu iş nə qədər mümkündür.

Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyi və M.F. Axundov adına Milli Kitabxanada olan məlumatları təhlil etdikdən sonra biz maestronun nəşr olunmuş notlarının siyahısını tərtib etdik:

1. 1938-ci il - «Birinci deputat» (sözləri: H.Natiq), fortepiano ilə oxumaq üçün. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı.

2. 1950-ci il - «Vətən nəğməsi» (sözləri: S.Rüstəm), fortepiano ilə oxumaq üçün. (İ.Oratovskinin rus dilinə tərcüməsi də vardır), Bakı, Azərbaycan Dövlət Nəşriyyatı.

3. 1950-ci il - «Can Stalin» (sözləri: R.Rza).

4. 1951-ci il - «Nizami» operasından Ləzgihəngi. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı (həmin nəşrdə həmçinin S.Polonskinin «Belorus polkası» var).

5. 1951-ci il - «Lay-Lay» (həmin notda Komitasın «Ruçeyok»u) M. - L.

6. 1956-cı il - «Festival mahnısı», R.Hacıyevlə birgə yazılmışdır. Bakı.

7. 1956-cı il - «Rast» simfonik muğamı, partitura, Bakı, «Azmusnəşr».

8. 1957-ci il - «Xoşbəxtlik mahnısı», R.Hacıyevlə birgə (sozləri: T.Mütəllibov), Bakı, «Azmusnəşr».

9. 1967-ci il - «Qaytağı», partitura, Bakı, Azərbaycan Dövlət Nəşriyyatı.

10. 1984-cü il - «Rast»ın yeni nəşri, Moskva, «Sovet bəstəkarı» nəşriyyatı (Bu nəşrdə nədənsə 1956-cı il nəşrində olan «Həyat yoldaşım Həcərə» həsr olunması haqqında yazı artıq yoxdur).

11. 1987-ci il - «Vətən nəğməsi», «Fortepianonun müşayiəti ilə oxumaq və ya xor üçün SSRİ xalqlarının mahnıları» məcmuəsində yenidən nəşr olunmuşdur, rus dilində (1950-ci il nəşrində S.Rüstəmin sözlərinin tərcüməsi ilə müqayisədə Stalinin adı çəkilmir).

Beləliklə, Niyazinin sağlığında (o 1984-cü il avqustun 2-də vəfat etmisdir) onun cəmi 9 əsəri nəşr olunmusdur. Bunların sırasında «Rast» və «Qaytağı» seçilir. Doqquzundan 2-si isə sonralar yenidən nəşr olunmuşdur. Təəccüblüsü isə odur ki, muzey tədqiqatçıları 2004-cü ildə Niyazinin arxiv materialları arasında



onun naməlum fortepiano əsərlərini, «Almaz» kinofilminə və «Çitra» baletinə musiqinin fraqmentlərini aşkar etdikdə və bu əsərləri ilk dəfə səsləndirib nəsr etdirməyi planlaşdırdıqda, biz bəzi mötəbər musiqiçilərin sübhələri ilə rastlaşdıq. Onlar bu əsərlərin nəşr olunmasının əleyhinə çıxaraq hesab edirdilər ki, Niyazinin bu ilk əsərlərində öz üslubu görünmür və Niyazi gözlənilməz, qeyri-adi tərəfdən təqdim olunur. Buna baxmayaraq bu nəşri hazırladıq və 2005-ci ildə fortepiano üçün məcmuəni nəşr etdirdik. Qeyd etmək lazımdır ki, böyük əksəriyyət bu tapıntını ruh yüksəkliyi ilə qəbul etmişdir. Məcmuəyə altı fortepiano pyesləri, «Almaz» filminə musiqidən üç fraqment və «Çitra» baletindən adajio daxil olunmusdur. 2006-cı ildə isə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin maddi dəstəyi ilə bu əsərləri və əlyazmaları muzeydə saxlanılan, geniş kütləyə naməlum olan digər müəlliflərin əsərləri də daxil olan kompakt disk işıq üzü görmüşdür (ifaçı - Ülviyyə Hacıbəyovadır). Beləliklə, Niyazinin nəşr olunduğu əsərlərinin siyahısına daha altı fortepiano pyesləri və balet, kinomusiqisindən fraqmentlər əlavə olunmuşdur. Nəticədə bizə Niyazinin nəşr olunmuş 15 əsəri və ya əsərinin fraqmentləri məlumdur. Bu isə, əlbəttə onun bəstəkarlıq irsi, ifaçılığı və tədqiqi ilə tanışlıq üçün kifayət qədər deyildir.

Bəstəkar və dirijor Niyazinin səsyazılarına gəldikdə, notlara nisbətən vəziyyətin bir qədər yaxşı olmasına baxmayaraq, burada da vəziyyət o qədər ürəkaçan deyildir. Mənim hesablamalarıma görə Niyazinin dirijorluğu ilə müxtəlif müəlliflərin, o cümlədən Niyazinin özünün 110-a yaxın bütöv əsərləri, əsərlərin hissələri və nömrələrin səsyazıları mövcuddur. Bunlar qramvallara və maqnit lentlərinə yazılmışlar. Lakin daha genis dinləyici kütləsinə əlçatan olması üçün onlar müasir kompakt disklərə köçürülməlidirlər. Qeyd etmək lazımdır ki, bu prosesə başlanmısdır. Məsələn, «İlkin Production» firması tərəfindən Niyazinin özünün dirijorluq etdiyi əsərlərinin kompakt diskləri artıq satışda vardır. Bunlar «Rast», «Vətən nəğməsi», «Konsert valsı», «Xumar oldum», «Qara gilə», «Arzu», «Ləzgihəngi», «Çitra» baletindən 10 nömrə, həmçinin, Niyazinin rəhbərliyi ilə orkestrin ifa etdiyi F.Əmirovun «Mən ki, gözəl deyildim» kinofilminə musiqisi və «Azərbaycan süitası»dır.

Bundan əlavə, Niyazinin əsərlərinin digərləri tərəfindən ifasının diskləri mövcuddur. Bunlar: bir neçə il bundan əvvəl Yalçın Adıgözəlovun rəhbərliyi ilə P.İ.Çaykovski adına Dövlət Akademik Böyük Simfonik Orkestrinin ifa etdiyi «Rast» simfonik muğamının diski (səsyazının müddəti-35:30), pianoçu Rəna Rzayevanın diskində Niyazinin «Miracle» fortepiano pyesi, həmçinin yuxarıda qeyd etdiyimiz muzey tapıntılarının diski və Ülviyyə Hacıbəyovanın şəxsi diskində digər əsərlərlə yanaşı Maestronun «Arzu» romansının səsyazısıdır. Bütün bunlar sevindirici haldır. Lakin Niyazinin özünün və onun ifa etdiyi xeyli əsərlər səsyazısına alınmaması üzündən səslənmir. (Bax: müəllifin «Musiqi dünyası» jurnalının 2002-ci il 3/4 sayında təqdim etdiyi siyahı). Bunların sırasına həm Azərbaycan, həm də Baxdan başlayaraq İ.Xandoşkinə qədər xarici müəlliflərin əsərləri daxildir. Səsyazısı mövcud olan Niyazi irsinin tez bir zamanda yenidən disklərə köçürülməsi vacibdir (misal üçün, onun bəzi kinofilmlərə musiqisi qorunub saxlanmamışdır).

***Yuxarıda qeyd olunanlardan göründüyü kimi, bu sahədə müəyyən addımlar atılmışdır, lakin milli mədəniyyətimizin klassiklərindən biri olan Niyazi irsini ona layiq təbliğ etmək üçün daha çox işlər görülməlidir.***